Təhsil naziri Misir Mərdanov mərasimi giriş sözü ilə açaraq bədən tərbiyəsi və idmanın inkişafını dövlətimiz üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri kimi səciyyələndirib, qazanılan möhtəşəm uğurların ölkəmizdə idmançılara göstərilən qayğının nəticəsi olduğunu bildirib. Nazir ümummilli lider Heydər Əliyevin idman sahəsinin inkişafına həmişə diqqət və qayğı ilə yanaşdığını, bu ənənənin hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

2011-ci ilin Azərbaycanın idman həyatında bir çox uğurlarla yadda qaldığını qeyd edən Misir Mərdanov bu nailiyyətlərin qazanılmasında Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən idman və şahmat məktəbləri yetirmələrinin xüsusi rolu olduğunu bildirib. Nazir idmanın şahmat və futbol növlərinin daha da inkişaf etdirilməsi üçün ölkə Prezidentinin sərəncamları ilə təsdiq olunmuş Dövlət Proqramlarının icrası istiqamətində görülmüş işlərdən söhbət açaraq 2011-ci ildə Ağcabədi, Quba, Xaçmaz və Ucarda şahmat məktəbləri üçün yeni binaların istifadəyə verildiyini nəzərə çatdırıb.

Cari ildə Təhsil Nazirliyi tərəfindən mərkəzləşdirilmiş qaydada bütün şahmat məktəblərinin müxtəlif mebel dəstləri, kompüter, kompüter avadanlıqları, texniki tədris vasitələri, digər zəruri avadanlıqlar və əyani vəsaitlərlə təmin edildiyini söyləyən nazir ümumtəhsil məktəblərində şahmatın tədris olunması istiqamətində həyata keçirilən tədbirlərdən söz açıb. Misir Mərdanov bildirib ki, 2011-ci ildə də şahmat məktəblərinin yetirmələri respublika birincilik və çempionatlarında 14-ü qızıl, 11-i gümüş və 13-ü bürünc olmaqla 38 medal, Avropa, dünya birinciliklərində və çempionatlarında isə 5- i qızıl, 3-ü gümüş, 2- i bürünc olmaqla 10 medal qazanıblar.

Təhsil naziri respublika və beynəlxalq yarışlarda yüksək nəticələr göstərən idmançıların, onların təmsil etdikləri məktəblərin adlarını sadalayıb və bu uğurların davamlı olacağına inamını ifadə edib. Təhsil sistemində fəaliyyət göstərən uşaq-gənclər idman və şahmat məktəblərinin, həmin məktəblərdə çalışan məşqçi-müəllimlərin fəaliyyətlərini qiymətləndirmək, istedadlı idmançıları aşkar etmək və onları rəğbətləndirmək məqsədilə ənənəvi olaraq hər il keçirilən respublika müsabiqəsində 159 idman məktəbinin iştirak etdiyini nəzərə çatdıran nazir qalibləri təbrik edib və onlara uğurlar arzulayıb.

Sonra 12 nominasiya üzrə keçirilmiş respublika müsabiqəsi qaliblərinə diplom və hədiyyələr təqdim olunub.

Mərasimdə gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva, Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov, millət vəkili Rauf Əliyev, millət vəkili Ülvi Quliyev, təhsil sistemində fəaliyyət göstərən uşaq-gənclər idman və şahmat məktəblərinin rəhbərləri, məşqçi-müəllimlər və idmançılar iştirak ediblər.